Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

"İnsan mühəndisi" Azərbaycan təhsilində böyük yenilikdir

Mənə təqdim olunan kitaba ön söz yazmağı təklif edəndə etiraz etmədim. İşlərim çox olsa da, gərgin işləsəm də bu kitab haqqında öz fikirlərimi söyləmək istəyirdim. Ona görə ki, bu kitabın müəllifi Şəmil Sadiqin yaratdığı "Hədəf" liseyinin işi ilə yaxından tanış idim.

Hər dəfə "Hədəf" liseyinə daxil olanda bütün mərtəbələri gəzir və görülən işlərə heyranlıqla tamaşa edirdim. Tamaşa edə-edə fikirlərimi məni müşayət edənlərə bildirirdim. Çünki hər dəfə mərtəbələrdə gördüyüm yenilikləri Azərbaycan təhsilinin uğurlarından hesab edirdim. Əslində "Hədəf" liseyində gördüyüm yeniliklərin hər biri əgər bir tərəfdən liseyin imicinə hörmət qazandırırsa, digər tərəfdən bu yeniliklərin hər birisini Azərbaycan təhsilinin uğuru kimi də dəyərləndirmək olar. Niyə? Birincisi, ona görə ki, "Hədəf" liseyinin rəhbəri Azərbaycan təhsilinə bələd olan bir mütəxəssis kimi təkcə mənim yox ölkəmizin pedaqoji ictimayətinin, hətta təhsil rəhbərlərinin rəğbətini qazanan bənzərsiz mütəxəssisdir. İkincisi, bu bənzərsiz mütəxəssisin gördüyü bütün işlərin hər birində novatorluq elementləri var. Üçüncüsü, Şəmil müəllim əl vurduğu, baş qoşduğu, həll etməyə başladığı hər bir işə kreativ şəkildə yanaşır. Məhz ona görə də onun gördüyü hər bir işin uğurla nəticələnməsində onun məhz özünün şəxsi kompitensiyalarına əsaslanması diqqəti cəlb edir...

Şəmil Sadiqi mən hələ 20 saylı orta məktəbdə sıravi müəllim kimi çalışmağa başladığı dövrdən tanıyram. Ona görə çalışmağa başladığı dövrü xüsusi qeyd edirəm ki, həmin dövrə qədər 20 saylı tam orta məktəbdə mənim tələbə yoldaşım çalışırdı. Mən tələbə yoldaşımla 4 il ali məktəbdə oxumuş, sonra 6 il rayon məktəblərinin ayrı-ayrı siniflərində fənn müəllimi kimi çalışmışıq. Bakıya gələndən sonra mən Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda, tələbə yoldaşım isə Bakı şəhəri 20 saylı tam orta məktəbində fəaliyyətə başlamışıq. 70-ci illərin sonlarından etibarən tələbə yoldaşım həmin məktəbdə çalışmağa başlamışdı. Mən də bir tədqiqatçı olaraq həmin məktəbdə dərsləri dinləmiş, bir sıra müşahidələr, müxtəlif xarakterli eksperimentlər aparmışam. Bunları ona görə söyləyirəm ki, 20 saylı tam orta məktəbin pedaqoji kollektivinin gördüyü işlər həmişə yüksək səviyyədə olmuşdur. Məktəb avanqard məktəb kimi daim Təhsil Nazirliyi tərəfindən yüksək qiymətləndirilmişdir. Bir sözlə, bu məktəbin təlim-tərbiyə işləri örnək xarakterli olduğu üçün həmişə rəğbətlə qarşılanmışdır. Ona görə də bu məktəbə savadı, səviyyəsi, sərtləşi zəif olan müəllimlərin işə qəbul edilməsi müşgül məsələdir.

Tələbə yoldaşım deyirdi ki, Şəmil müəllim məktəbə qədəm qoyduğu gündən etibarən öz yenilikləri ilə diqqəti cəlb etmiş, pedaqoji işə, fənlərin tədrisinə olan hədsiz məhəbbəti bütün pedaqoji kollektivin dilinin əzbəri olmuşdur. Bunları bildiyim üçün Şəmil müəllim mənə müraciət edərkən rəhbərlik etdiyi "Hədəf" kurslarının bir bölməsi ilə əməkdaşlıq təklif edəndə bu təklifi böyük məmnuniyyətlə qəbul elədim. "Hədəf" kurslarının fəaliyyəti dövründə ildə bir neçə dəfə onun rəhbərlik etdiyi kollektivin fəaliyyəti ilə yaxından tanış olmaq üçün müşahidələr aparırdım. Hər dəfə "Hədəf" kurslarına qədəm basanda yeniliklərlə qarşılaşırdım. Mən yarım əsrə qədər bir müddətdə təhsil sahəsində çalışdığım üçün ölkəmizdə fəaliyyət göstərən tədris kurslarının demək olar ki, böyük əksəriyyətinin fəaliyyətini izləmişəm, bu gün də izləyirəm. İzlədiyim müddətdə həmin kursların yalnız didaktik mahiyyət kəsb edən hazırlıq işlərinin həyata keçirmiş olurlar.

Onların demək olar ki, hamısından fərqli olaraq "Hədəf" kurslarında bir-birindən maraqlı təlim-tərbiyə işlərinin həyata keçirilməsini görəndə Şəmil müəllimə "Fəaliyyətinizi genişləndirin" deyə təkidlə müraciət edirdim. Hər dəfə kursa gələn valideynlərlə görüşəndə onun novatorluğundan nəşət edən təlim-tərbiyə işlərinin yüksək səviyyədə qurulması barədə informasiyalar əldə edirdim. Çünki valideynlərin bir qismi uşaqlarını birinci sinifə qəbul olunmaq üçün hazırlığa gətirir, bir qismi İbtidai siniflərdə oxuyan zəif uşaqlarını fəallaşdırmaq üçün kursa yazdırırdılar. Bir qismi ortabab oxuyan övladlarını fəallaşdırmaq üçün, bir qismi də övladlarını ali məktəbə hazırlaşdırmaq üçün kurslara gətirirdilər.

Kurslara gələn şagirdlər üçün təşkil olunan fənn kabinetlərinin, təlim studiyalarının, didaktik mənzərələrin, pedaqoji traferetlərin hər biri onların təlimə marağının artmasına səbəb olurdu. Kursa gələn tələbələr üçün təşkil olunan dərsdənkənar tədbirlərin növlərinə diqqət edəndə onların sterlotiplərdən uzaq olan, müasir həyat hadisələrini, milli və ümumbəşəri dəyərlərin inteqrasiyasını, ümummilli və ümumbəşəri dəyərləri özündə əks etdirən bilik, bacarıq və vərdişlər sisteminin formalaşdırılması kimi qabaqcıl təcrübə modelini görmək olardı.



Bütün bunlar və digər yeniliklər, deferensiallaşdırılmış təlim normaları şagirdləri və valideynləri yüksək səviyyədə təmin etdiyi üçün "Hədəf" kurslarının "Hədəf" liseyinə çevrilməsi ilə bağlı hazırladıqları tədbirlər planını böyük məmnuniyyətlə reallaşdırdılar.

Maraqlı cəhət odur ki, "Hədəf" liseyi fəaliyyətə başladığı gündən etibarən adına layiq işləməyə başladı. Ona görə adına layiq işləməyə başladı ifadəsini xüsusi vurğu ilə ifadə edirik ki, liseydə "Hədəf" anlayışı milli konsepsiyaya çevrildi. Mən deyərdim ki, Hədəfin müəyyənləşdirdiyi milli konsepsiya həm milli dəyərlərimizi, həm də ümumbəşəri dəyərləri özündə əks etdirən konsepsiyadır. Dünyanın 100-dən artıq ölkəsində müşahidə aparan bir pedaqoq, bir təhsilşünas alim kimi qeyd etməliyəm ki, mütərəqqi konseptual ideyalarla çalışmayan təhsil müəssisələrində uğurlar qazanmaq çox çətindir. Bu mənada Hədəfin müəyyənləşdirdiyi milli konsepsiya, Şəmil müəllimin dili ilə desək, "Hədəf Konsepti" konkret təlim, tərbiyə, təhsil ideyalarının dünyəvi təhsilin tələblərinə cavab verə biləcək bir səviyyəyə qaldırılması nəzərə tutulan konsepsiyadır. Bu konsepsiyanın əsas hədəfi vahid bir məqsədə, başqa sözlə desək, məqsədlər sistemində xidmət edir. Bu konseptin əsas məqsədi milli dəyərlərə söykənərək çağdaş təfəkkürlü və dövrün tələblərinə cavab verən çevik zəkalı insanlar yetişdirməkdir. Hədəf Konseptinin çağdaş insanın formalaşmasını beş əsas prinsiplə həyata keçirməyi təklif edir: Özünüdərk, Sağlamlıq, Bacarıq, Yaradıcılıq, Bilik.

Şəmil müəllimin mənə təqdim olunan "İnsan Mühəndisləri: Valideynlər və müəllimlər" kitabının əsas obyekti və predmeti mahz bu prinsiplər əsasında qurulmuşdur. Kitabın elə birinci bölməsi "Hədəf Konsepti" adlanır. O bu konseptin özünüdərk, sağlamlıq, bacarıq, yaradıcılıq, bilik kimi prinsiplərini ayrı-ayrılıqda şərh edir. Biz bu prinsiplərə pedaqoji cəhətdən yanaşsaq, onların hər birini ümumpedaqoji prinsiplər kimi pedaqoji anlayışlar sisteminə daxil edərək aşağıdakı şəkildə təsnifləndirə bilərik:

Hər bir şagirddə özünüdərkin aşılanması prinsipi;

Hər bir şagirdin sağlamlığının qorunması və təmin olunması prinsipi;

Hər bir şagirdə həyati bacarıqların hərtərəfli aşılanması prinsipi;

Hər bir şagirdin yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prinsipi;

Hər an yeni biliklərə yiyələnmək uğrunda çalışmaq prinsipi.

Milli dəyərləri özündə ehtiva edən, Şəmil müəllimin təbirincə desək, milli dəyərlərə söykənərək çağdaş təfəkkürlü, müasir zəkalı və çevik insanın yetişdirilməsinə xidmət edən bu prinsiplərin hər biri bu gün ümumtəhsil məktəblərində ümumpedaqoji prinsiplər kimi tətbiq olunmalıdır. Çünki bu prinsiplər üzrə işləyən hər bir təhsil müəssisəsi, təlim-tərbiyə qurumu, maarifçilik ocağı uğurlar qazana bilər.

Kitabda Hədəf Konsepti liseyin simvolları qismində konkret sxem əsasında da öz əksini tapmışdır. Müəllif haqlı olaraq həmin sxemə daxil olan hədəfləri laconik şəkildə ideyalar konsepsiyası fonunda aşağıdakı şəkildə şərh edir:

Bilgə insan - Hədəf Konseptinin məqsədi yaxın gələcəyin milli, sağlam, bacarıqlı, yaradıcı və bilgə insanlarını yetişdirmək;

Bilikli - Özünü dərk etmiş, bilikli, bacarıqlı və yaradıcı insan, dünyada fəaliyyətini düzgün qurmaq üçün layiqli olan vətəndaş yetirmək;

Bacarıqlı - zəngin həyati bacarıqlara yiyələnən yeni insan yetişdirmək;

Yaradıcı - bilikli, bacarıqlı və yaradıcı qabiliyyətlərə yiyələnən insan yetişdirmək;

Sağlam - yetişdirmələrimizin sağlam olması da əsas hədəflərimizdəndir.

Hədəfin Konsepsiyasında STEM, Bilgə insan, Dəyərlər həftəsi, Balabilgə anlayışları yer alır. Bu anlayışların işlənilməsinə qarşı çıxmaq düzgün deyil. Ona görə ki, bir təhsil birendi, bir beynəlxalq trend kimi qəbul olunan STEM beynəlxalq təhsil sistemində aparıcı termin kimi işlədilir. Həmin anlayışın baş hərflərinin çox mühüm pedaqoji mahiyyət kəsb edən sözlərin birliyindən yarandığını görürük. Yeni STEM sözünün birinci hərfi olan "S" hərfi "Sience" sözünün birinci hərfidir. Sience "elm" deməkdir. İngilisdilli xalqların dilində olan bu söz əslində bütün bəşəriyyətin sivilizasiyasına səbəb olan, qloballaşdırmanın dinamikasına təsir göstərən, bəşəriyyəti sinirgetik dövrə daşıyan elm mənasını verir. STEM sözünün ikinci hərfi "T" hərfidir. Bu hərif "Texnologiya" "Technology" sözünün baş hərfidir. Əslində Avropa dillərinin hamısında, əsasən ingilisdilli xalqların dillərində "Technology" sözü bizim dilimizdə "Texnologiya" anlayışını əvəzində ehtiva edir. STEM sözündəki üçüncü hərf "E" hərfidir. "E" hərfi isə "Engineering" sözünün baş hərfidir. Mənası "Mühəndislik" deməkdir. "STEM" sözünün sonuncu hərfi olan "M" hərfi isə "Math" sözünün birinci hərfidir. Math sözü isə "Riyaziyyat" deməkdir. Kitabda müəllif STEM sözünü açarkən bu sözün bütün məna çalarlarını özündə ehtiva edən simvolik mənanın böyük pedaqoji dəyərini sadə dillə açıqlayan müəllifin fikrincə, XXI əsrin məktəblisi elmin əsaslarına yiyələnməli, texnologiyanın bütün komponentlərini duymağı, qavramağı, qiymətləndirməyi bacarmalı, mühəndislik sahəsində nəzəri və praktik bilikləri malik olmalı, bazar iqtisadiyyatı şəraitində elmi-texniki tərəqqinin son nailiyyətləri dövründə riyazi hesablamaları hərtərəfli anlamalı və bu sahədə kifayət qədər təcrübəyə malik olmalıdır. Bunları nəzərə alan müəllif STEM-in mahiyyəti, məzmunu, elmi-pedaqoji, metodik arenadakı yeri, lisey şagirdlərinin bilik, bacarıq, vərdişlər sistemindəki mövqeyi, məzunların elmi dünyagörüşləri, şəxsiyyətyönümlü inkişafı ilə birbaşa inteqrasiyada olduğunu aydınlaşdırmışdır.

Bilgə insan deyəndə müəllif bilikli insan nəzərdə tutur. Əslində "bilgə" sözü qədim türk sözüdür. Bu söz şifahi xalq yaradıcılığında və qədim klassik yazılılarda da yer alır. Mahmud Kaşğarinin "Divanü Lüğat-it-Türk" kitabında "bilgə" sözü daha çox işlənən söz kimi yer alır. Məlum olduğu üzrə XI əsrdə ilk samballı lüğəti tərtib edən Mahmud Kaşğari bu dörd cildlik kitabı ərəblərə türk dilini öyrətmək üçün yazmışdır. Həmin cildlərdə dünyada ilk qrammatikanın bünövrəsi qoyulmuşdur. Çünki həmin cildlərdə fonetika, morfologiya, sintaksis və leksikologiyanın əsasları qoyulmuşdur. Mahmud Kaşğari kitabın girişində göstərir ki, Məhəmməd Peyğəmbər (s) ərəblərə "Türk dilini öyrənin. Onların uzun sürən haklmiyyəti olacaqdır" deyə tövsiyə etmişdir. Peyğəmbərin (s) bu tövsiyəsini əsas götürən M.Kaşğari ərəblərə türk dilini öyrətmək üçün 90 mindən artıq türk sözünü, anlayışını, söz birləşmələrini, fonetik, morfoloji, sintaktik üslubları elmi-metodik əsaslarla təhlilə cəlb etmişdir. Təəssüflər olsun ki, həmin 90 mindən artıq sözlər kompleksini ərəblər mənimsəyərək öz sözləri kimi təqdim etmişlər. Bu gün dilimizdə və lüğətlərdə ərəb və fars sözləri kimi yazılan kəlamların mənşəyi türk mənşəlidir. Təklif edirəm ki, ölkəmizin ən aparıcı orta ümumtəhsil məktəblərindən biri, mənim fikrimcə birincisi olan "Hədəf" liseyində türk dilləri ilə bağlı bölmənin, yaxud gələcəkdə yaradılması təmin edilsin. Liseydə "Mahmud Kaşğari" guşəsi yaradılarsa liseyin Türkiyənin təhsil müəssisələri ilə, xüsusilə Türkiyədə qabaqcıl liseylərlə mütəmadi əlaqələr üçün zəmin yaranmış olar. Şəmil müəllim isə gələcək kitablarında qabaqcıl iş təcrübəsinin bu növündən də bəhs edər. Nə isə, keçək növbəti anlayışların izahına.

Kitabda "dəyərlər həftəsi" anlayışı ilə bağlı tövsiyələrimiz də var. Fikrimcə, STEM-in əsas fəaliyyəti qeyd olunan prinsiplərə milli və ümumbəşəri dəyərlər sistemino istinad olunmaqla qurulur. Ona görə "Hədəfin dəyərlər STEM-i" anlayışından istifadə edilməsi daha məqsədəmüvafiq olardı.

"Balabilgə" sözünə gəldikdə deməliyik ki, bu sözü leksik vahid kimi qəbul etmək olar. Bu şərtlo ki, bu söz Azərbaycan Dilinin Orfoqrafiya Lüğətinə daxil edilməlidir. Məlum olduğu kimi, "Azərbaycan Dilinin Orfoqrafiya Lüğəti"nə daxil edilən sözlərimizin miqdarı artıq 90 mini keçmişdir. Bu söz kitabda bütün səviyyələrdə öz yerində işlənildiyi üçün onun izahına heç bir ehtiyac duymuruq. Sadəcə, təklif edirik ki, kitaba daxil olan yeni sözlər və terminləri Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda bu sahədə fəaliyyət göstərən komissiyaya göndərilsin. Çünki hər on ildən bir lüğətin yeniləşdirilməsi zərurəti yaranır və ora yeni sözlər daxil edilir. Ona görə kitabda yer alan yeni sözlərin lüğətə daxil edilməsi üçün həmin komissiyaya müraciət

etmək olar.

Kitabda "Vacib kültürlər" adlı bir başlıq var. Bu başlıq altında müəllif uşaqlarınızla danışın, uşaqlara gözləməyi öyrədin, uşaqlara ayaqları üzərində durmağı öyrədin, "Uşaqlara "yox" deməyi öyrədin", "Uşaqlara ailə kültürü haqqında öyüdlər verin", "səhv etməyi öyrədin uşaqlarınıza", "onlara təşəkkür etməyi, minnətdarlıq hissini öyrədin", "Onlara empati duyğusunu öyrədin", "Sual verma kültürü öyrədək uşaqlarımıza" kimi yarımbaşlıqlar yer alır. Hansı ki, bu bölmədə həmin yarımbaşlıqlar altında verilən mövzularda yetişən nəslin nümayəndələrinə ədəb-ərkan qaydalarının öyrədilməsi, onlara mədəniyyət dərsi keçilməsi tövsiyə olunur. Əslində mədəniyyət təkcə ayrı-ayrı insanların deyil, bütün ölkələrin və xalqların inkişafında bənzərsiz rol oynayan amildir. Təsadüfi deyil ki, türk dünyasının böyük siması olan Mustafa Kamal Atatürk deyirdi: "Hər bir dövlətin iki ordusu olmalıdır. Biri hərb ordusu, biri də kültür ordusu".

Kitabda "kültür" sözünün işlənilməsi bu baxımdan yerinə düşmüşdür. Əlbəttə ki, dünya kültürü içərisində Türk kültürü ən aparıcı mövqe tutur. Bütün dünya xalqlarının Türk kültüründən qaynaqlanması, necə dəyərlər nəşvi-nüma alması bir həqiqətdir. Təəssüf ki, türk kültüründən qaynaqlanan xalqlar həmin kültürü indentifikasiya edərək öz adlarına çıxırlar. Şəmil Sadiqin kitabda vacib kültürlərə əsaslanaraq lisey şagirdlərinə ədəb-ərkan qaydalarını öyrətməsi pedaqoji cəhətdən yüksək qiymətləndirilməlidir. Çünki bir çox valideynlər uşaqları ilə dialoq qura bilmirlər. Onlara gözləməyi, ayaqüstə durmağı, "yox" deməyi, ailə kültürü ilə bağlı öyüdlər verməyi, təşəkkür etməyi, minnətdarlıq bildirməyi, empati duyğularla yaşamağı öyrətməkdə çətinlik çəkirlər.

Fikrimizcə, Şəmil Sadiqin ədəb-ərkan qaydaları ilə bağlı şagirdlərə verdiyi öyüdlərdən, tövsiyələrdən, məsələtlərdən valideynlər də istifadə edə bilərlər.

Kitabda "Təhsildə məzmun, yoxsa qiymətləndirmə" başlığı altında verilən yazıya da dəyər vermək lazım gəlir. Çünki bu yazıda beynəlxalq miqyasda biliyin qiymətləndirilməsi normaları müqayisəli şəkildə verilmişdir. Yəni Koreya, Finlandiya, Uruqvay, Danimarka, Fransa, Şanxay, Honkonq məktəblərinin təcrübəsinə istinad etməklə şagirdlərin qiymət normaları ilə bağlı yaxşı müqayisələr aparılmışdır. Müəllifin özü demişkən: Şagird biliyinin ölçülməsi üçün yazılan qiymətlə bağlı bütün müəllimlər əziyyət çəkir. Zənn edirəm ki, ölkəmizdə əksər müəllim qiymət yazmadan dərs keçməyi daha üstün tutar. Çünki qiymətləndirmə prosesi bu gün məktəblərimizdə ən çox problem yaradan məsələdir. Amma onu da unutmayaq ki, qiymətləndirmə sadəcə şagird üçün deyil, həm də müəllimin, məktəbin mənimsətmə səviyyəsini ölçmək üçündür. Düşünürük ki, araşdırmamızın nəticəsi olaraq bir neçə ölkədə keçirilən qiymətləndirmənin formatı ilə təhsil camiyəmizi məlumatlandırsaq, daha faydalı olar.

Bu fikirlərdən sonra müəllif qeyd edilən ölkələrdə qiymətləndirmə normaları haqqında lakonik məlumat verir və sonda faydalı ümumiləşdirmələr aparır. Bunun ardınca "Hədəf" liseyinin modelini təqdim edir. "Hədəf liseyinin təklif etdiyi model" adlı başlıq altında verilən yazı mətnində Hədəf liseyinin öz modeli təqdim olunur. Açığını etiraf eləmək lazımdır ki, bu model ölkəmizdə orta ümumtəhsil sistemində yeniliklər yaratmaq, örnək didaktik mühiti təşkil etmək, fənlərin tədrisi üçün müasir təlim metodlarından istifadə etmək, şagird-müəllim münasibətlərini əxlaqın safləşdırılması səviyyəsinə qaldırmaq, məktəb-ailə-ictimaiyyətin birgə fəaliyyəti üçün nümunəvi işlər görmək, təlimin tərbiyəedici xarakterinə uyğun praktik işləri həyata keçirmək, təlim-tərbiyə işlərində əyaniliyin, sistemliliyin, ardıcıllığın, elmiliyin, təşəbbüskarlığın, intizamlılığın, ədalətliliyin və digər əxlaqi-mənəvi keyfiyyətlərin formalaşdırılması baxımından yanaşması çox faydalıdır. Ona görə təqdim olunan kitabın orta ümumtəhsil məktəblərinə rəhbərlik edənlərin stolüstü kitabı kimi seçmələrini tövsiyə edirik...

Kitabda "Tədris proqramının ağırlığı təhsilin keyfiyyətinə necə təsir edir" başlığı altında verilən yazıda da, başqa sözlə desək, yarımfəsildə də müəllifin rəhbərlik etdiyi liseyin təcrübəsi haqqında da irəli sürdüyü dəyərli fikirlər də vardır. Hansı ki, bu fikirlər də təhsil müəssisələri rəhbərləri üçün çox mühüm əhəmiyyət kəsb edən fikirlərdir. Çünki dünya təcrübəsində tədris proqramının ağırlığı məsələsi gündəmdə olan məsələlərdən hesab olunur. Məhz ona görə müəllif tədris proqramlarının ağırlığının təhsilin keyfiyyətinə təsir etməsini həm milli, həm də beynəlxalq təcrübələr əsasında şərh edir. Təhsil müəssisələrinə rəhbərlik edənlərin bu yazıda verilən elmi-pedaqoji cəhətdən əsaslandırılmış ideyalarla tanış olmaları məsələhətdir.

Müəllifin məktəbli formasına və məktəbli psixologiyasına münasibətindən danışmaq istəmirik. Ona görə ki, 50 il bundan qabaq məktəbli forması və yaxud məktəbli psixologiyası ilə bağlı mütəxəssislərin fikirləri ilə bu günkü deyilənlər arasında nə qədər ciddi fərq varsa, 50 ildən sonra bu məsələ bərədə yazılacaq mütəxəssis fikirlərində də ciddi fərqlər özünü göstərəcəkdir. Biz arzu edərdik ki, məktəbli psixologiyası ilə bağlı fikir yürüdənlər yaş psixologiyası problemilə bağlı təhsil aldıqdan sonra elmi müddəalar yürütməyə ixtiyarı çatırmı? Yaxud uzun müddət bir yerdə çalışdığımız, filoloq-alimə ali məktəbdə ixtisara düşmənək üçün uşaq psixologiyası kursundan mühazirə oxumaq təklif edildi. Təəssüf ki, o, həmin təklifi "məmnuniyyətlə" qəbul etdi. İsmayılov familiyalı həmin filoloq dostumuz uzun illər həmin ali məktəbdə ona qarşı ittihamlar sürənlərə qarşı mübarizə apardı, xəstələndi və dünyasını dəyişdi. Onların hər ikisi uşaq psixologiyası kursundan mühazirələr oxudular, seminar məşğələləri apardılar, lakin psixoloq kimi yetişmədilər. Çünki psixoloqlar, ilk növbədə, fiziologiyanı, biologiyanı, bir sözlə təbiət elmlərini yüksək səviyyədə bilmələri ilə yanaşı, fəlsəfəni, sosiologiyanı, pedaqogikanı dərindən öyrəndikdən sonra psixoloq olmağa hazırlaşa bilərlər. Bu şərtlə ki, onlar, rus və Avropa dillərinin birində dünyanın məşhur psixoloqlarının əsərləri ilə tanış olsunlar. Yalnız belə bir təqdirdə şagird psixologiyası ilə bağlı nəsə demək olar. Fikrimizcə, kitab müəllifi yalnız xarici ölkələrin psixoloqlarına istinad etmək məcburiyyətində qalmışdır.

Kitabda müəllifin təcrübəsindən doğan yanaşmaları daha çox maraq doğurur. Çünki müxtəlif başlıqlar altında çağdaş təhsil çağdaş insandan geri qalır, yaddaş yoxsa təfəkkür məktəbi, şagirdlərin pərəstiş obyekti, şagird və azadlıq kimi məsələlərə öz şəxsi münasibətini bildirir. Mən belə yanaşmalara həmişə böyük rəğbət bəsləmişəm. Çünki belə yanaşmalar ölkəmizdə həyata keçirilən təlim-tərbiyə işlərinin vəziyyəti ilə bizi yaxından tanış edir. Yoxsa bəzi adı-sanlı alimlərin əcnəbi müəlliflərin yazıqlarını tərcümə etdirərək, necə deyərlər bizə sırımalarına nə ad vermək olar? Biz əcnəbi müəlliflərin dediklərini öz adına çıxan həmin təhsil işçilərinin, adlarını tədqiqatçı qoyan insanların yazdıqları kitablardan faydalanmaq əvəzinə, onları oxuduqca əsəblərimizi pozmuş oluruq.



Mən Şəmil Sadiqin həm elmi-tədqiqat materiallarında, həm bədii yaradıcılığında onun öz təcrübəsindən doğan və özünün intibalar qabında bişirərək oxuculara təqdim etdiyi fikirlərini onun novatorluğundan doğan fikirlər kimi qəbul etməyə alışmışam. Təəssüf ki, belə müəlliflərimiz çox azdır. Ona görə ki, bu gün kitaba, elmi əsərlərə olan marağın azalmasının səbəblərindən biri yazılan əsərlərin sambalının olmamasıdır. Şəmil müəllimin ön söz yazdığım bu əsərinin sambalı ona görə böyükdür ki, bu əsərdə istər valideyn, istər müəllim, istər şagird haqqında irəli sürülən maraqlı ideyalar, müddəalar real faktlar əsasında orijinal həyat təcrübəsi nümunələri əsasında yazılmışdır. Övladı qarşısında nüfuzu itmiş valideyn haqqında maraqlı faktlarla çıxış edən müəllif onların "Axı niyə mənim uşağım müstəqil ola bilmir?" suallarına da pedaqoji məntiqə uyğun olan cavablar verir.

Bu bir həqiqətdir ki, bu günkü şagirdlərin mobil telefona maraq göstərmələri nə dərəcədə düzgündür? Əslində bu sualı mən ona görə belə qoyuram ki, yarım əsrə qədər pedaqoji təcrübəsi olan bir mütəxəssisi - yəni məni bu sual uzun illərdir ki, narahat edir.

Biz pedaqoqlar ölkəmizdə tərbiyə nəzəriyyəsi yaratmaqla valideynləri övladlarına biliklərin əsaslarını öyrənməklə yanaşı onlara, həm də davranışla bağlı mənəvi keyfiyyətləri aşılamağı tövsiyə edirik. Maraqlı cəhət odur ki, kitabda davranışla bağlı çox maraqlı elmi ideyalar, tövsiyələr, məsləhətlər vardır.

Kitabda lisey rəhbərinin hər gün qarşılaşdığı pedaqoji ziddiyyətlər və onların aradan qaldırılması yolları da açıqlanır. Professor Nurəddin Kazımov pedaqoji ziddiyyətlərdən danışarkən onları daxili və zahiri ziddiyyətlər kimi iki növə bölür. O, zahiri ziddiyyətlər deyəndə məktəbin qarşısına qoyduğu məqsədlə onun yerinə yetirdiyi vəzifələr arasında ziddiyyətləri ön plana çəkir. Sonra məktəb rəhbərləri ilə fənn müəllimlərinin məsləhətləri və tövsiyələri arasında ziddiyyətləri müqayisə edir. Ailənin və məktəbin tərbiyəvi təsirləri arasında ziddiyyətləri də təhlilə cəlb edir. Bunlar bu günə qədər olan ziddiyyətlər hesab olunursa, bu gün də həmin ziddiyyətlərlə qarşılaşmağı təbii hal kimi qiymətləndirmək lazımdır.

Qeyd olunan ziddiyyətlərin hər birinə dair kitab müəllifinin fikirləri var. Həmin ziddiyyətlər "Çətin tərbiyə olunan uşaqlarla münasibəti necə qurmalı?", "Valideynlərlə necə münasibət qurmalı və ya iclasları necə aparmalı?", "Valideynə məktub" kimi başlıqlar altında verilmiş yazılarda bu və ya digər dərəcədə öz ifadəsini tapır. Bu pedaqoji ziddiyyətlərin hər biri üçün irəli sürülən elmi ideyaları, praktik pedaqoqika nümunələri kimi də dəyərləndirmək olar. Açığını etiraf etməliyik ki, bu gün ölkəmizdə 50-dən artıq müəlliflərin İştirakı ilə nəzəri pedaqogikalar hazırlanmışdır. Onların içərisində müstəqillik dövründə hazırlananların hamısı ali və ixtisas məktəblərində tədris olunur. Həmin dərslik və dərs vəsaitlərinin böyük əksəriyyətində praktik nümunələr, məktəb təcrübəsindən gətirilən dəyərli faktlar yox dərəcəsindədir. Fikrimcə, Şəmil müəllimin təqdim olunan kitabının üstünlüklərindən biri də onun praktik pedaqogika nümunələri ilə zəngin olmasından ibarətdir.

Akademik pedaqogikada məktəbin idarə olunması ilə bağlı ayrıca fəsillər var. Həmin fəsillərdə məktəb direktorlarının, onların müavinlərinin, sinif rəhbərlərinin vəzifələri sadalanır. Lakin onların hеç birisində bir rəhbərin bilməli olduqları ilə bağlı ideyalar, tövsiyələr, dəyərli fikirlər yoxdur. Təqdim olunan kitabda məktəb rəhbərləri, eləcə də məktəbin əməkdaşları üçün önəmli sayılan tövsiyələr, onların fəaliyyəti üçün örnək sayılan ideya və məsələhətlər yer alır. Hansı ki, həmin ideyalar, müddəalar, tövsiyələr, təkliflər, məsləhətlər şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması işində faydalı sayılan pedaqoji örnəklər kimi dəyərləndirilməlidir. Kitabın sonunda ədəbiyyat dərslərinin tədrisində yeniliklər və digər məsələlər yer alır.

Fikrimizcə, pedaqoji mühitdən, məktəb təcrübəsindən bəhs edən belə kitablar nə qədər çox yazılarsa ölkəmizdə həyata keçirilən təhsil islahatları ilə bağlı problemlərin həllinə kömək olur.

Fərahım SADIQOV,
pedaqogika elmləri doktoru,
professor